

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 iyun 2025-ci il №39 (2948) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib




Azərbaycan Prezidenti İlham Əliyev 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesabında 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan minifutbol yığmasını təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesabında Azərbaycan minifutbol yığmasının qələbəsi münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

“Azərbaycan minifutbol yığması dünya çempionatının qalibidir! Komandamıza parlaq qələbəyə görə təşəkkür edirəm! Sizinlə fəxr edirik! Milli yığmamızın bütün üzvlərinə möhkəm cansağlığı, güc, enerji və yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!”.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik

*İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib.



### Prezident İlham Əliyevin çıxışı

- Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatı dünən başa çatdı. Azərbaycan milli komandası bütün oyunlarda peşəkarlıq, qələbə əzmi göstərərək dünya çempionu titulunu qazanmışdır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. İlk növbədə, komandanın oyunçularını, məşqçilərini, mütəxəssislərini, Minifutbol Federasiyasını və bu qələbədə iştirak etmiş bütün insanları təbrik edirəm. Siz Azərbaycan xalqına yeni qələbə sevinci bəxş etmisiniz! Dünya çempionu olmaq böyük şərəfdir və böyük məharət tələb edir, xüsusilə komanda idman növündə. Bu, artıq gözəl tarixdir. Bu tarixi yazan da sizsiniz və şadam ki, Azərbaycanda minifutbol üzrə belə güclü oyunçularımız var.

Çempionatı izləyənlər öz gözləri ilə bizim oyunçularımızın tam üstünlüyünü görə biliblər. Mən oyunların son dördünü izləmişəm və tam əminliklə deyə bilərəm ki, bu qələbə ədalətli mübarizədə qazanılmış qələbədir. Siz bu qələbəyə layiqsiniz. Futbol meydançasında bütün rəqibləri üstələmisiniz və eyni zamanda, gözəl komanda ruhu nümayiş etdirmisiniz. Görürəm ki, oyunçular bir-birinə çox bağlıdır, bir ailə kimidir. Əlbəttə ki, Azərbaycanda hökm sürən bu gözəl ab-hava, bu iqlim qələbənizi şərtləndirən amillərdən biridir, eyni zamanda, bütün tamaşaçılar da bunu əyani şəkildə görüblər. Oyunu həm gimnastika arenasında izləyənlər, həm də televiziya vasitəsilə izləyənlər sizin qələbənizə ürəkdən sevinmişlər. Yenə də deyirəm, siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır. Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik. Məhz bizim istedadlı və peşəkar gənclərimiz bu qələbə sevincini bizə gətirirlər. Mən sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, bu qələbələrin davamı olsun. Əlbəttə ki, bu titulu qorumaq o qədər də asan olmayacaq. Mübarizə çox gərgin gedirdi və təbii ki, dünya çempionatında təmsil olunan komandalar ən güclü komandalardır. Ancaq hesab edirəm ki, gələcəkdə xalqımızı sevindirmək və Azərbaycanın idman şöhrətini daim yüksəklərdə saxlamaq üçün sizin böyük imkanlarınız var.

(Ardı 2-ci səhifədə)

## Rəsmi xronika

✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul edib.

Görüşdə dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana "Bakı Enerji Həftəsi" ilə bağlı göndərdiyi məktuba görə təşəkkürünü bildirib.

Söhbət zamanı ölkəmizdə enerji, o cümlədən bərpaolunan enerji sahəsində mühüm layihələrin icra olunduğu qeyd edilib, Azərbaycan və Türkiyənin bu istiqamətdə əməkdaşlığının bundan sonra daha da genişlənəcəyinə ümidvarlığı bildirilib. Enerji sahəsində əməkdaşlığımızın geniş gündəliyə malik olduğu vurğulanıb və bu xüsusda gələcək layihələrlə bağlı fikir mübadiləsi aparılıb.

✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin təsisçisi və direktorlar şurasının sədri Məhəmməd Əbunəyyanı qəbul edib.

Görüşdə Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında əməkdaşlığın bir çox sahələrdə, o cümlədən enerji və bərpaolunan enerji sahələrində inkişafından məmnunluq bildirilib.

Ölkəmizlə "ACWA Power" şirkəti arasında uğurlu layihələrin həyata keçirildiyi vurğulanıb. Bu şirkətin Qafqaz regionunun ən böyük külək elektrik stansiyası olacaq Xızı-Abşeron külək elektrik stansiyası layihəsini inkişaf etdirməsinin əhəmiyyətinə toxunulub.

Söhbət zamanı gələcək əməkdaşlıqla bağlı məsələlər müzakirə olunub.

✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının neft naziri Əli Pervaiz Maliki qəbul edib.

Söhbət zamanı bir neçə gün əvvəl Laçında Azərbaycan, Türkiyə Prezidentlərinin və Pakistanın Baş nazirinin üçtərəfli görüşü xatırlanıb, bu tədbirin ölkələrimiz arasında qardaşlığın və həmrəyliyin nümayişi olduğu bildirilib.

Azərbaycanla Pakistan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafından məmnunluq ifadə olunub, əməkdaşlığımızın enerji sahəsini də əhatə etdiyi vurğulanıb.

Görüşdə ölkələrimiz arasında enerji, həmçinin bərpaolunan enerji sahəsində qarşılıqlı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlərə dair müzakirələr aparılıb.

✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın "Schlumberger Overseas S.A" (SLB) şirkətinin baş icraçı direktoru Olivye Le Peşi qəbul edib.

Görüşdə "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin əhəmiyyətinə toxunulub, bu tədbirlər zamanı qlobal enerji məsələləri ilə bağlı müzakirələrin aparıldığı vurğulanıb, ölkəmizlə bu şirkət arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardilli qəbul edib.

Görüşdə "ExxonMobil" şirkətinin Azərbaycanda uzunmüddətli fəaliyyəti, o cümlədən "Azəri-Çıraq-Günəşli" layihəsində səhmdar qismində iştirakı qeyd olunub. Ölkəmizin neft-qaz potensialının reallaşdırılması istiqamətində SOCAR ilə "ExxonMobil" arasında bu gün imzalanması nəzərdə tutulan Anlaşma Memorandumu barədə Azərbaycan Prezidentinə məlumat verilib.

✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Bakı Enerji Həftəsi"nə uğurlar arzulayıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik





**(Əvvəli 1-ci səhifədə)**

Bir daha sizi təbrik edirəm və bu qələbə sevincini xalqımıza bəxş etdiyiniz üçün Azərbaycan xalqı adından Sizə təşəkkürümü bildirirəm. Sağ olun.

* * *

Azərbaycan Minifutbol Federasiyasının prezidenti **Orxan Məmmədov** deyib:

- Möhtərəm cənab Prezident, mən şəxsən bütün federasiya adından, futbolçular adından, məşqçi heyəti adından Sizə öz dərin təşəkkürümü bildirirəm ki, bu gün bizi qəbul edirsiniz. Doğrudan da, bu gün bizim üçün həm şərəfli, həm də uğurlu bir gündür. Biz doğma divarlar arasında dünya çempionu olmuşuq. Bu, hər bir futbolçu üçün çox önəmli bir haldır. Sizə deyə bilərəm ki, bütün oyunlar zamanı bütün azarkeşlər bizi dəstəkləyirdi. Xalqımız televizorun önündə bizi dəstəkləyirdi. Əlbəttə ki, futbolçular da çox böyük zəhmət çəkdilər və hər bir oyunda bir ailə kimi ruhlarını, canlarını qoydular. Doğrudan da, azarkeşlər onları irəli səsləyirdi.

Möhtərəm cənab Prezident, əlbəttə ki, Sizin idmana, gəncliyə, ümumiyyətlə, bütün futbolsevərlərə, minifutbolsevərlərə verdiyiniz dəstək bizim uğurumuzun əsas sütunu idi. Bunu hər bir futbolçu bilir və Sizə dərin təşəkkürümüzü bildiririk.

Həmçinin Sizin sahibkarlara göstərdiyiniz dəstək göz önündədir. Onlar futbolun bu növünə yatırımlar edirlər. Bizim çox güclü çempionatımız var. Sponsorlar oraya dəstək göstərir. Əlbəttə ki, biz bu çempionatdan ən güclüləri yığaraq bu gün milli komanda yaratmışıq. Onlar həm Avropa çempionu, həm də dünya çempionu oldular. Son dəfə Siz bizi qəbul edərkən Sizə söz verdik ki, çalışacağıq yeni titullar, yeni uğurlar qazanaq. Bizim üçün çox şərəflidir ki, bu dünya kubokunu Sizin önünüzə gətiririk.

Sizə çox dərin təşəkkürümü bildirirəm, bu qələbəni biz xalqımıza, Vətənimizə, Sizə və hörmətli Mehriban xanıma həsr edirik. Çox sağ olun, Sizə çox təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev**: Sağ olun.

Milli komandanın baş məşqçisi **Elşad Quliyev**: Hörmətli Prezidentimiz, öz adımdan, komandanın adından təşəkkür edirəm ki, bizi dəvət etmisiniz. Biz 2022-ci ildə də Avropa çempionu olanda Siz bizimlə səmimi söhbət etdiniz və tapşırıqlarınızı verdiniz. O gündən sonra da biz çalışırdıq ki, yeni nailiyyətlər əldə edək. İnşallah, qismət oldu, dünən dünya çempionu olduq. Bunun üçün Sizə çoxlu təşəkkür edirik və xalqımıza, federasiyamıza "Çox sağ ol!" deyirik. Sağ olun.

**Prezident İlham Əliyev**: Sağ olun, təşəkkür edirəm.

Dünya Minifutbol Federasiyasının prezidenti **Filip Juda** deyib:

- Möhtərəm cənab Prezident, Azərbaycanı belə möhtəşəm təmsil edən bütün bu şəxslərlə birlikdə burada olmaq mənim üçün, həqiqətən də, şərəfdir. Sizin qarşınızda onları bu böyük uğur münasibətilə bir daha təbrik etmək və bu turniri Azərbaycana gətirdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istərdim.

Bu, zənnimcə, mənim Bakıya 8-ci səfərimdir. İlk dəfə 2017-ci ildə burada olmuşam, Azərbaycan Minifutbol Federasiyasından olan bu insanlarla görüşmüşəm. Deməliyəm ki, onlar, həqiqətən də, böyük iş gördülər. Onlar Avropa çempionluğunu, dünya çempionluğunu qazandılar. Mən Sizə növbəti çempionatlarda uğurlar arzulayıram. Bilirəm ki, Sizin qrafikiniz çox məşğuldur. Sizi bu gün başlayan "Bakı Enerji Həftəsi"ndə gördüm. Bizimlə və bütün bu şəxslərlə görüşmək imkanına görə təşəkkür edirəm. Ümidvaram ki, bu uğur sayəsində Azərbaycanda yeni nəsil minifutbolçular meydana çıxacaq. Çünki, şübhəsiz ki, bu nailiyyətiniz Azərbaycanda minifutbolun inkişafına, xalqa və bütün cəmiyyətə müsbət töhfə verir.

Bildiyimə görə, Azərbaycan Minifutbol Federasiyası ölkədə minifutbol arenasına sahib olmaq üçün böyük səylər göstərir. Ümidvaram ki, Dünya Minifutbol Federasiyası və yerli hökumətlə birlikdə bu, uğurlu bir layihə olacaq. Çünki, şübhəsiz ki, bu insanlar 2022-ci ildə Avropa çempionluğu, 2025-ci ildə dünya çempionluğunu qazanmaqla buna, həqiqətən də, layiqdirlər. Onların burada cənab Prezidentin qarşısında olmaqları ilə fəxr edirəm.

Dəvətə görə təşəkkür edirəm, sizin hamınıza uğurlar arzulayıram.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram. Federasiya adından Azərbaycanda minifutbolun inkişafına verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Bu dəstək bizim üçün, həqiqətən də, qiymətlidir və biz Azərbaycanın beynəlxalq idman institutları ilə əməkdaşlığını yüksək qiymətləndiririk.

Əminəm ki, bu qələbə minifutbolun inkişafına növbəti təkan verəcək. Artıq Azərbaycan milli komandası bütün mümkün olan titulları qazanıb - Avropa çempionu, dünya çempionu. Əlbəttə ki, uşaqlar, yeniyetmələr, bax, bu qələbəyə sevinənlər - bizim gənc nəslimiz hesab edirəm ki, minifutbola daha böyük maraq göstərəcək və bu idman növünün inkişafı Azərbaycanda sürətlə gedəcək.

Milli komandamızın bütün üzvləri Azərbaycanda yetişdirilmiş gənclərdir. Bunun da xüsusi önəmi var. Yığma komandamızın müxtəlif inkişaf mərhələləri var idi və bu gün biz qələbə mərhələsində görüşürük. Təbii ki, xarici mütəxəssislərin, bəzən oyunçuların da müəyyən payı olub. Amma bu gün Azərbaycan milli komandası sırf Azərbaycanda doğulmuş, boya-başa çatmış gənclərdən ibarətdir və bu da xüsusi qürur hissi oyadır. Mən əminəm ki, bundan sonra da siz bizi sevindirəcəksiniz. Gələcəkdə çoxlu yarışlar var. Bildiyiniz kimi, indi Azərbaycanın bölgələrində idman qurğuları inşa edilir, inşaat geniş vüsət alıb və minifutbol meydançalarının da yaradılmasında böyük fayda olacaq, həm Bakıda, həm də bölgələrdə. Əminəm ki, federasiya dövlət qurumları ilə, sponsorlarla birlikdə bu sahədə növbəti uğurlu addımlar atacaqdır.

Bir daha sizi təbrik edirəm.

* * *

Sonda Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Şanlı Zəfərin Böyük Qayıdış salnaməsi

5 il bundan əvvəl hər şey, bəlkə də, əlçatmaz arzu kimi görünürdü bizə. 30 ilin həsrəti, qaçqınlıq həyatı, qaysaq bağlamamış Xocalı yarası üstümüzə qara bulud kimi çökmüşdü. Ta 2020-ci ilin 27 sentyabr tarixinə kimi... O gün Zəfər yürüşü arzularımızın səsi, susuzluqdan cadar bağlamış torpağın nəfəsi oldu. Müzəffər ordunun cəsur döyüşçüləri addım-addım, qarış-qarış o torpaqları düşmən tapdağından təmizlədi, üçrəngli bayrağımızın kölgəsində azadlığına qovuşmuş torpaqlar aydınlığa çıxdı. Xalq-dövlət-ordu birliyinin "dəmir yumruğ"a çevrilmiş gücü qarşısında Ermənistanın işğalçı ordusu diz çökdü.

### 5 ilin astanasında

Qazandığımız şanlı Zəfərin bu il 5-ci ildönümü tamam olacaq. Ötən beş ilin tarixi gedişatında mühüm hadisələrə şahidlik etdik. 2023-cü ilin 19-20 sentyabr tarixlərində antiterror əməliyyatı ilə Qarabağda erməni separatizminə son qoyuldu və Azərbaycan özünün beynəlxalq aləmdə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Torpaqlara qayıdış günləri tarixləşdi.

Dövlət başçısının 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası hazırda uğurla davam etdirilir. Məcburi köçkünlərin doğma yurdlarına qayıdışı mərhələli şəkildə həyata keçirilir. Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək müəyyən edilmiş beş milli prioritetindən biridir. Proqramın birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq. Bu dövr ərzində 140 min köçkünün öz dədə-baba torpaqlarına qayıtması nəzərdə tutulub. Tarixi qələbədən sonra işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə tamamlanmaqda olan Zəngəzur dəhlizinin tikintisi işlərin miqyasını və əhatəliliyini göstərir. Sürətlə aparılan abadlıq-quruculuq işləri, salınan yollar, tikilən məktəb binaları, sosial obyektlər, köçürülən əhalinin məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən layihələr düşmənin xarabaya çevirdiyi torpaqlara yeni həyat bəxş edir. Və övladlarımızın Xankəndidə fəaliyyət göstərən Qarabağ Universitetində təhsil alması görülən ən böyük işlər sırasındadır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı əhalinin məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına zəmin yaradıb. Hazırda bu bölgələrdə ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, həyata keçirilən bərpa və quruculuq layihələrində çalışan, həmçinin müxtəlif dövlət qurumlarının yerli strukturlarında xidməti vəzifələrini yerinə yetirən şəxslər, səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye və energetika sahələrində fəaliyyət göstərən mütəxəssislər daxil olmaqla, ümumilikdə, 40 mindən çox insan yaşayır.

### "Elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq"

Dövlət başçısının işğaldan azad edilmiş ərazilərə hər səfəri bir sıra sosial obyektlərin açılışı, mühüm infrastruktur layihələrinin gerçəkləşdirilməsi, insanların öz el-obasına qayıdışı ilə əlamətdar olur. "Yadımdadır, işğaldan sonra ilk dəfə Ağdamda ağdamlılarla görüşəndə və yeni şəhərin təməlini qoyanda mən demişdim, elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq". Bu il martın 27-də Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında çıxış edən dövlət başçısının bu fikirləri Ağdam timsalında yenidən qurulan şəhərlərə, abadlaşan, gözəlləşən bütün yaşayış məntəqələrinə şamil etmək olar. 2022-ci ildə Böyük Qayıdışın ilk ünvanlarından olan Ağalıya köç zamanı da biz aparılan quruculuq işlərində müasir şəhərsalma standartlarının tətbiqinin şahidi olduq. "Ağıllı kənd" layihəsi üzrə görülən işlər göz oxşadı. Düşmənin xarabaya çevirdiyi Ağalının yerində gözəl, abad Ağalı ucaldı, bir də köç edən sakinlərin şən gülüşləri...

Bununla da böyük qayıdış digər yaşayış məntəqələrinə də öz töhfəsini verdi. Və bu proses davam etməkdədir.

### Növbəti köç ünvanları

"Mən işğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərim zamanı onlara müvəqqəti yaşayış evlərini təqdim edərkən hər dəfə deyirdim ki, torpaqlar azad olunandan sonra daha da gözəl şərait yaradılacaq və biz sizi öz doğma torpağınıza qaytaracağıq. Bu gün də o sözlərimin təsdiqi bir daha öz yerini tapır. Artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər qayıdırlar". Bu fikirləri ölkə başçısı İlham Əliyev martın 27-də Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında səsləndirib.

**(Ardı 4-cü səhifədə)**

# MMU-da NATO-nun təhsil üzrə ekspert qrupunun görüşləri keçirilib





NATO-nun "Müdafiə təhsilinin genişlənməsi proqramı" (DEEP) çərçivəsində ölkəmizdə səfərdə olan hərbi təhsil üzrə ekspert qrupu Milli Müdafiə Universiteti (MMU) və onun tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrində görüşlər keçirib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə MMU-da keçirilən görüşdə cari il üzrə hərbi təhsil sahəsində görülən işlər təhlil edilib, perspektivdə duran məsələlər müzakirə olunub.

Səfər çərçivəsində NATO nümayəndə heyəti, həmçinin MMU-nun Hərbi İdarəetmə İnstitutu, Heydər Əliyev adına Hərbi İnstitut və Hərbi Tibb Fakültəsində olublar. Qonaqlara brifinqlər təqdim olunub, onları maraqlandıran suallar cavablandırılıb.

Keçirilən görüşlər zamanı xüsusi təyinatlı təhsil müəssisələrində təşkil olunan hərbi təhsil proqramları ilə bağlı zəruri məlumatlar verilib, əvvəlki görüşlərdə müzakirə edilmiş mövzuların cari vəziyyəti təhlil edilib, təhsil proqramlarının inkişafı ilə bağlı təkliflər dinlənilib, pedaqoji heyətin bilik və bacarıqlarının artırılması, elektron tədris sisteminin təşkili və perspektivdə duran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan Ordusunda Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı tədbirlər keçirilib



1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirlərdə hərbi qulluqçuların, sağlamlığını itirən döyüşçülərimizin və şəhidlərimizin övladları müxtəlif hərbi hissələri, park və muzeyləri ziyarət ediblər.

Uşaqların sağlamlığının qorunması məqsədilə hərbi tibb müəssisələrində onların müayinə və müalicəsi, eləcə də dispanserizasiyası təşkil edilib.

Tədbirlərdə, həmçinin uşaqlar üçün əyləncəli oyunlar, viktorinalar, şən oyunlar, mədəni-kütləvi hərbi vətənpərvərlik proqramları nümayiş etdirilib, hədiyyələr təqdim olunub və bayram süfrələri açılıb.

**"Azərbaycan Ordusu"**

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə bayram tədbiri keçirildi. Tədbirin məqsədi uşaqlara sevinc bəxş etmək, onların sağlamlığına diqqət yetirmək və ailələrinə mənəvi dəstək göstərmək olub.

Böyük tarixi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyev deyirdi: "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır". Bu dəyərli fikirlər bu gün də dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi aktualdır və hər bir vətəndaş üçün yol göstərici rolunu oynayır.

Tədbirdə "Azərbaycan Könüllü Həkimlər Assosiasiyası"nın sədri Oktay Mehtiyevin rəhbərliyi ilə 22 ixtisas üzrə həkim iştirak edib. Həkim briqadası tərəfindən hərbi qulluqçuların övladları, döyüşlərdə yaralananlar və hazırda xidmət edən hərbi qulluqçular müayinə olundular. Peşəkar həkimlər müxtəlif sahələr üzrə tibbi yoxlanışlar apardı, məsləhətlər verdi və ehtiyac olduqda müvafiq müalicə tədbirləri tövsiyə etdilər.





Klounların iştirakı ilə təşkil olunan maraqlı və əyləncəli proqramlar, oyunlar, musiqili yarışmalar və rəqslər uşaqlara bayram sevinci yaşatdı. Açıq havada musiqi mərkəzi vasitəsilə tanınmış uşaq mahnıları səsləndirildi, tədbir əsl bayram ab-havasında keçdi.

Belə tədbirlər uşaqların sağlamlığına və xoşbəxtliyinə verilən yüksək qiymətin bariz nümunəsidir. Eyni zamanda, bu cür təşəbbüslər hərbi qulluqçuların ailələrinə göstərilən diqqət və qayğının əyani təzahürüdür.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

# ƏÜO-da hərbi vəzifəlilərlə növbəti təlim toplanışı keçirilib



Cari ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində Əlahiddə Ümumqoşun Ordu-da (ƏÜO) ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, ehtiyatdan çağırılan hərbi vəzifəlilər qeydiyyatdan və həkim müayinəsindən keçdikdən sonra hərbi geyim və digər təminat növləri ilə təmin olunublar.

Hərbi vəzifəlilərlə maarifləndirici söhbətlər aparılıb, onlara hərbi nizamnamələrin və müvafiq qanunvericiliyin tələbləri xatırladılıb, təhlükəsizlik qaydaları çatdırılıb.

Toplanış çərçivəsində günün nizam qaydasına uyğun fəaliyyətlər icra olunub, ümumqoşun və ixtisas hazırlığı üzrə dərslər keçirilib, eləcə də atıcı silahlardan və qumbaraatanlardan atış çalışmaları yerinə yetirilib.

# Raket-artilleriya batareyalarının döyüş atışlı taktiki təlimləri keçirilib



Cari ilin döyüş hazırlığı planına uyğun olaraq, Raket və Artilleriya Qoşunlarının bölmələrində döyüş atışlı taktiki təlimlər keçirilib.

Plana əsasən, bölmələrin daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq ərazidə yerləşməsi, texnikaların döyüşə hazır vəziyyətə gətirilməsi və atəş mövqelərinin tutulması üzrə tapşırıqlar icra olunub.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimlərdə bölmələr haubitsalardan və yaylım atəşli reaktiv sistemlərdən döyüş atışları icra edib. Şərti düşmən hədəflərinin sərrast artilleriya atışları ilə məhv edildiyi təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Təlimin keçirilməsində əsas məqsəd komandir heyətinin çevik qərar qəbuletmə qabiliyyətinin, bilik və bacarıqlarının təkmilləşdirilməsi, döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması, digər qoşun növləri ilə qarşılıqlı əlaqənin inkişaf etdirilməsi, eləcə də şəxsi heyətin səhra və praktiki vərdişlərinin artırılmasına yönəldilib.

# Tarixi şəxsiyyət - tarixin şəxsiyyəti

Dövlətlər yaranandan, dövlətlər arasına sərhədlər düşəndən qılınclar qınından sıyrılıb, çox vaxt söz qılıncdan kəsərli olub. Kəsərli sözün düzümünə siyasət deyiblər. Siyasət dünyanın nizamını gah bu tərəfə çəkib, gah o biri tərəfə. Tarix sözü kəsərliləri tanıyıb, sözü kəsərlilərin iradəsinə meyillənib. Belə kəsərli sözlülərə, qətiyyətlilərə, dünənləri sabahlar üçün xatırlayanlara, bu günü sabahlar üçün yaşayanlara tarixi şəxsiyyət deyiblər. Tarixi şəxsiyyət tarixin axarını xalqının istəyinə yönəldə bilir.

Heydər Əliyev belə tarixi şəxsiyyət idi. "N" hərbi hissəsində belə bir tarixi şəxsiyyətin xatirəsinə ehtiram kimi təşkil edilən söhbət tarixin şəxsiyyətinə sevgidir. Sevərək yaşayanlar tarixdə də, yaddaşlarda da əbədi bir nəğmə kimi qalır. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" qüruru Azərbaycanı sevənlərin hamısının qürurudur. Bu qürur yaşarı qürurdur, dünyəvi qürurdur, bəşəri qürurdur...

Əldiyyə baş leytenantı Behbud Əliyev sözarası soruşur ki, may ayında hansı tarixi günlər var. Hamısı "9 may" deyir, "10 may" deyir, "28 may" deyir. Zabitin təklifi ilə mayın 10-dan danışılacaq. Böyük tarixi şəxsiyyət Heydər Əliyevdən, Sovetlər birliyinin tərkibində olanda da, dövlət müstəqilliyi bərpa olunduqdan sonra da Azərbaycanı düşünən ən böyük azərbaycanlıdan...

Əldiyyə baş leytenantı Behbud Əliyev deyir ki, böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələnə kimi Dövlət Təhlükəsizlik Komitəsində bölmə rəisi, şöbə rəisi, sədr müavini, sədr vəzifələrində xidmət edib, ona general-mayor rütbəsi verilib. 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilib. Bu seçim Azərbaycanın tale seçimi olub. 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunub. 1987-ci ildə Sov. İKP MK Siyasi Bürosunun baş katibi M.Qorbaçovun siyasi kursuna etiraz olaraq istefa verib.

Bu deyilənləri söhbətə başlanğıc bilirik. Əsgərlər orta məktəbdə oxuyanda müəllimlərindən, hərbi xidmət müddətində zabitlərdən böyük tarixi şəxsiyyətin ömür yolu haqqında, siyasi irsi haqqında, Azərbaycana xidmətləri haqqında çox eşidiblər. Bu gün eşitdiklərini, yaddaşlarında yaşatdıqları hadisələri, faktları birlikdə xatırlayırlar...

Əsgər Kənan Əliyev Bakıda ibtidai hərbi məktəbin necə açıldığından danışır:

- Hərbi hazırlıq müəllimimiz deyirdi ki, Heydər Əliyev azərbaycanlıların hərbçi peşəsinə marağını yüksəltmək məqsədilə Bakıda hərbi təmayüllü internat məktəb yaradılmasına təşəbbüs göstərdi. Moskva bu təşəbbüsün qarşısını almaq istədi. Moskva Naximov, Suvorov adına məktəblərin SSRİ-yə bəs elədiyini bildirmişdi. Böyük tarixi şəxsiyyət Heydər Əliyev bunların da qarşısını qətiyyətlə



aldı, Bakıda belə bir məktəbin açılmasının zəruriliyini əsaslandırdı. Moskva etiraz edə bilmədi. Yaradılan bu məktəbə Cəmşid Naxçıvanskinin adı verildi. Xalq bu məktəbi dərin ehtiram olaraq Heydər Əliyev məktəbi adlandırdı.

Əsgər Rəvan Muradov o illərdə azərbaycanlı gənclərin hərbi təhsil almalarından söz açır, həm də tanıdığı bir ailənin timsalında:

- Qonşumuz Telman baba da hərbçi olub, oğlu İlkin də. İlkin əmi deyirdi ki, o illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycandan SSRİ-nin müxtəlif şəhərlərinə ali hərbi təhsil almağa bir çox gənclər göndərilirdi. Atam da belə hərbçi olmuşdu, mən də belə hərbçi oldum. Atam yaşlaşmışdı, mən Birinci Qarabağ müharibəsində iştirak etmişəm. Yəni, böyük tarixi şəxsiyyət Azərbaycanın gələcəyini o vaxtlardan düşünübmüş.

Əsgərlərin dedikləri tarixdir, bu tarix Azərbaycan gerçəkliklərinin tarixidir. Heydər Əliyev haqqında deyilənlər Azərbaycanın əlli il əvvəlki tarixi kimi dinlənilir, əsgərlər bu fikirləri bu günün tarixinin başlanğıcı bilirlər...

Əsgərlər eşitdiklərindən danışırlar. Eşitdikləri olmuşlardır, gerçəkliklərdir, deyilənlər həyat həqiqətləridir. Rəvan deyir ki, babam mühəndisdir. Ali təhsil alandan sonra Bakı Məişət Kondisionerləri zavodunda işləyib. Minlərlə gənc Heydər Əliyevin təşəbbüsü ilə yaradılan zavodlarda əmək fəaliyyətinə başlamışdı. Ozon zavodunda, Elektron-hesablama Maşınları zavodunda. Bu zavodlar Azərbaycanın iqtisadiyyatında olduqca əhəmiyyətli olub. Babam deyirdi ki, o illərdə Azərbaycan İttifaqda inkişaf etmiş respublikalardan biri idi.

Heydər Əliyevin Azərbaycanın ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə böyük sevgisi vardı. Bakıda, eləcə də digər şəhərlərdə şair və yazıçıların, incəsənət xadimlərinin, mədəniyyət korifeylərinin abidələri ucaldılırdı, adları əbədiləşdirilirdi. Hüseyn Cavidin nəşinin uzaq Sibirdən gətirilməsinin təşəbbüskarı da "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" deyən Heydər Əliyev oldu.

Əldiyyə baş leytenantı Behbud Əliyev Azərbaycanda milli-azadlıq hərəkatının genişlənməsindən söz açır, bu hərəkatdan narahat olan Moskvanın Bakıya qoşun yeritdiyini, 20 Yanvar faciəsini törətdiyini xatırladır. Əsgərlərə deyir ki, bunu təkcə hadisə kimi deyil, böyük tarixi şəxsiyyət Heydər Əliyevin faciəyə tarixi münasibəti kimi yada salın.

Zabit 20 Yanvar faciəsindən söz açır, yanvarın 21-də Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyi qarşısında bəyanatla çıxış etməsindən danışaraq deyir ki, bu çıxış faciəni törədənlərin ittihamı idi, qırğının törədilməsi əmrini verənlərin də, onu yerinə yetirənlərin də cəzalandırılması tələbi idi.

Bu, 20 Yanvar faciəsinə ilk siyasi münasibət idi. Sonralar bu bəyanat faciənin səbəblərinin araşdırılmasında əhəmiyyətli olmuşdu...

Moskva Bakıda faciə törətsə də, milli-azadlıq hərəkatını dayandırmaq istəsə də, xalqın iradəsi qalib gəldi, Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Bu, SSRİ-nin dağılmasının başlanğıcı idi...

Azərbaycanda siyasi vəziyyət gərginləşəndə xalq böyük tarixi şəxsiyyət Heydər Əliyevi təkidlə hakimiyyətə çağırdı. Həmişə Azərbaycanın taleyini düşünən ən böyük azərbaycanlı xalqın təkidli dəvətini qəbul etdi, 1993-cü il iyunun 15-də Bakıya gəldi. Qısa müddətdə Azərbaycanın dövlətçiliyini xilas etdi. Əsgərlər bu haqda da danışırlar.

Əsgər İbrahim Zeynalov deyir:

- Tarix müəllimimiz Azərbaycanın yeni tarixi haqqında danışanda demişdi ki, bu tarix Azərbaycanın dövlətçilik tarixində ən həssas mərhələlərdəndir. Böyük siyasi xadim olan Heydər Əliyev milli qarşıdurmanın qarşısını aldı, mövcud yerli müdafiə batalyonlarının buraxılması haqqında sərəncam verməklə nizami ordunun yaradılmasının başlanğıcını qoydu, qısa müddətdə nizami ordu formalaşmağa başladı. Horadiz əməliyyatı da, dövlət başçısı kimi səngərlərdə hərbçilərlə görüşləri də ordunun şəxsi heyətinin döyüş əzmini də yüksəltdi, qələbə ruhunu da.

Əsgər İlham İsayev böyük tarixi şəxsiyyətin təşəbbüsü ilə müasir Azərbaycanın beynəlxalq müqavilələr bağlamasından söz açır:

- "Əsrin müqaviləsi", "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Supsa" kimi neft kəmərləri Azərbaycanın iqtisadi inkişafını yüksəltməklə bərabər, onun siyasi nüfuzunu da artırırdı, ehtiramını da. Dünya dövlətləri Azərbaycanla ikitərəfli müqavilələr imzalamağa daha maraqlı olurdu. Belə müqavilələr Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində əhəmiyyətli amillər sırasında idi. Bu da Heydər Əliyevin Azərbaycana xidmətlərindən biri kimi tarixləşib...

Böyük tarixi şəxsiyyət Heydər Əliyev azərbaycançılıq ideologiyasını dövlətçilik ideologiyası səviyyəsinə yüksəltmişdi ki, bu da Azərbaycanın dövlətçilik tarixində son dərəcə gərəkli oldu. Bu səbəbdən siyasətçilər qətiyyətlə bildirdilər ki, Heydər Əliyev müasir Azərbaycanın dövlətçilik memarıdır.

Heydər Əliyev dünya azərbaycanlılarını eyni məfkurə ətrafında birləşdirmək istəyirdi. İstəyirdi ki, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı üçün Azərbaycan adında bir işıq olsun, hər bir azərbaycanlının amalı, əqidəsi bu işığın səyyarəsinə dönsün. Bu məqsədlə dünya azərbaycanlılarının birliyini arzulayırdı.

Əsgər Asim Ağayev deyir:

- Milli-azadlıq hərəkatı genişlənmişdi. Xalq 1989-cu ilin dekabr ayının axırlarında Naxçıvan ərazisində İranla sərhədi dağıtdı. Ruh ruha qovuşdu, ürək ürəyə. Bu hadisə SSRİ-nin süqut ərəfəsində olduğunu təsdiqləyirdi, həm də SSRİ-nin çökməsində azərbaycançılığın da böyük təsiri olacaqdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev bu hadisəni xalqın mübarizə əzmi kimi dəyərləndirmişdi və dünya azərbaycanlılarının birliyini yaratmaq üçün dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişdi. Bu, böyük tarixi şəxsiyyətin xalqın mübarizə ruhuna və tarixi günə ehtiramı idi.

Əsgər yoldaşının fikrini əsgər Rəvan Muradov tamamlayır:

- Dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edildi. Heydər Əliyevin azərbaycançılıq ideologiyası dövlət siyasətinin tərkib hissələrindən biri oldu. Bakıda Dünya azərbaycanlılarının qurultayı keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin bu siyasi ideyasını da uğurla davam etdirir.

Əsgər Rahid Əliyev deyir ki, ən qədim eposlarımızdan biri olan "Kitabi-Dədə Qorqud" dastanı təkcə ədəbiyyatımızın tarixi deyil, həm də xalqımızın, dövlətçiliyimizin tarixidir. Böyük tarixi şəxsiyyət Heydər Əliyev ən qədim yazılı abidəmiz olan bu dastanın dünyada daha ətraflı tanıdılması məqsədilə onun 1300 illiyinin təntənəli qeyd edilməsi ilə bağlı sərəncam imzaladı. 2000-ci il aprelin 9-da keçirilən bu tədbir dastanın yaranma tarixinə, bu baxımdan xalqın xalq kimi formalaşma tarixinə aydınlıq gətirdi. Bu da böyük tarixi şəxsiyyətin Azərbaycana xidmətlərindəndir...

Böyük tarixi şəxsiyyət Heydər Əliyev tarix yaratdı. Bu tarix Azərbaycanın tarixidir, SSRİ dönəmində də belə olmuşdu, dövlət müstəqilliyi bərpa olunduqdan sonra da belə oldu. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu tarixi daha da mətinləşdirir...

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Şanlı Zəfərin Böyük Qayıdış salnaməsi

**(Əvvəli 2-ci səhifədə)**

Xatırladaq ki, cari ilin ötən dövrü ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam şəhərinə səfəri zamanı görülən genişmiqyaslı tikinti işləri ilə tanış olub, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib. Dövlət başçısının iştirakı ilə Xankəndi şəhərində Zəfər parkının təməli qoyulub. Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanışlıq zamanı kəndə köçən bir qrup sakinlə görüş keçirilib, onların sevincinə şərik olunub.

Mart ayında Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edən dövlət başçısı rayonun Həsənriz kəndinə köçən bir qrup sakinlə görüşüb, bayram tonqalını yandırıb.

Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksi öz sakinlərini qarşılayıb. Quruculuğun növbəti ünvanı mədəniyyət beşiyi olan Şuşa olub. Tarixi Çöl Qala məscidi və bulağı bərpadan sonra istifadəyə verilib. Hazırda Qarabağ küçəsində, Şuşa Müalicə-Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri öz axarı ilə davam edir. Planlı şəkildə həyata keçirilən bu tədbirlər nəticəsində şəhərlər, qəsəbə və kəndlər abadlaşır, sakinlərinin qayıdışı ilə canlanır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində aprelin 21-i və 29-u tarixlərində Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə və Xocalı rayonunun Ballıca kəndinə növbəti köç karvanları yola salınıb. Aprelin 22-də doğma yurduna yola salınan köç karvanı isə Ağdərə rayonunun Həsənriz kəndinə istiqamətlənib. Bu mərhələdə respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış 68 nəfərdən ibarət 20 ailəyə mənzillərin açarları təqdim edilib. Aprelin 28-də Xocalı şəhərində daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş fərdi yaşayış evlərində mənzillər verilib. Aprelin 30-da Sarıcalı kəndinə daha 158 nəfərdən ibarət 35 ailə köçürülüb.

Vətən müharibəsində qazanılan Zəfər torpaq həsrətimizə son qoydu. Doğma torpaqlarına qayıdan soydaşlarımız həm öz ata-baba yurd yerlərinə qovuşdular, həm də rahat həyat şəraitinə. Evlərdə yandırılan hər işıq illərlə əsarətdə inləmiş torpaqlara günəş kimi doğacaq. Düşmənin 30 ildə cəhənnəmə döndərdiyi bu torpaqlar qısa zamanda cənnətə çevriləcək. Həm də bütün dünyanın həsəd aparacağı cənnətə...

**Ruhiyyə RƏSULOVA**
**"Şərq qapısı" qəzetinin məsul katibi**

## Medallı igidlərimiz

# "Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında Qarabağımızı azad etdik"

*Tariximizə nəzər saldıqda neçə-neçə oğullarımızın Vətən üçün canından keçməyə hazır olduğunun, qorxu bilmədən düşmən üzərinə mətin addımlarla yeridiyinin şahidi oluruq. Həmin oğullar əcdadlarımızdan bizə əmanət olan torpaqları göz bəbəyi kimi qoruyub, bu yolda əllərindən gələni əsirgəməyiblər. Sadaladığımız amillər bir daha onu göstərir ki, Azərbaycan xalqı qəhrəman xalqdır.*

Qəhrəmanlığımızı qoruyub saxlayan, bizi qələbədən qələbəyə aparan, Zəfər tarixi yazdıran isə hər birimizin qəlbində olan vətənpərvərlik hissidir. Vətənpərvərlik hər bir insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Xalqımız tarix boyu öz Ana Vətənini göz bəbəyi kimi qorumağa hər an hazır olan igid oğullar yetişdirib.

2020-ci il sentyabrın 27-də başlayan 44 günlük haqq savaşımız zamanı müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda döyüşlərə atılan, yeni qəhrəmanlıq salnamələri yazan igid oğullarımız bunu bir daha sübut etdilər.

Onlardan biri Yardımlı rayonunda dünyaya göz açan kapitan Ülvi Məmmədlidir. Ülvi orta və ali təhsilini başa vurduqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. O, "N" hərbi hissəsində xidmətini uğurla başa vurduqdan sonra ordu sıralarından tərxis olunub. Daha sonra hərbçi olmaq qərarına gələn Ülvi sənədlərini toplayaraq, indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən "Ehtiyat zabit



hazırlığı kursu"na qatılmaq üçün müraciət edib. Kursa qəbul olaraq burada hərbi biliklərə yiyələnib. 2017-ci ildə müvafiq kursu müvəffəqiyyətlə başa vuran Ülvi gənc zabit kimi xidmətə yollanıb. Xidməti dövründə keçirilən təlimlərdə iştirak edən zabit bilik və bacarıqlarını təkmilləşdirməyə, verilən əmr və tapşırıqları yüksək peşəkarlıqla icra etməyə hər zaman səy göstərib.

Hər bir həmvətənimiz kimi, Ülvi də torpaqlarımızın işğalda olması hər zaman narahat edirdi. O da digər silah yoldaşları kimi Ali Baş Komandanımızın döyüş əmrini gözləyirdi. Və nəhayət, həmin gün gəlib çatdı. Ülvi Məmmədli Müzəffər Ali Baş Komandanın döyüş əmri ilə Vətən torpaqlarının azad edilməsi uğrunda başlayan döyüş əməliyyatlarına qatıldı.

Hərbi qulluqçumuz bildirdi ki, döyüş əmrinin verildiyi gün sevincimin həddi-hüdudu olmayıb. "Çünki mən də hər bir vətənpərvər vətəndaşımız kimi bu günü səbirsizliklə gözləyirdim. Döyüşlərə qatıldığımız andan etibarən düşməndən günahsız soydaşlarımızın, şəhidlərimizin qisasını alır, onları doğma ata-baba torpaqlarımızdan çıxardırdıq. İllərlə işğal etdikləri əzəli torpaqlarımızı Ali Baş Komandanımızın rəhbərliyi altında rəşadətli ordumuz azad etdi. Ordumuzun qüdrəti, hərbi qulluqçularımızın peşəkarlığı sayəsində düşmən tamamilə darmadağın edildi. Çıxılmaz vəziyyətdə qalan işğalçılar isə yeganə çıxış yolunu döyüş meydanından qaçmaqda gördülər. Biz Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında doğma Qarabağımızı azad etdik".

Zabit qeyd etdi ki, o, həmçinin 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror əməliyyatında - ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasında da iştirak edib.

Kapitan Ülvi Məmmədli Vətən müharibəsində ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda gedən döyüşlərdə vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarına layiq görülüb.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

## Hərb tariximiz

# Azərbaycan Ordusunun yaranması və inkişaf perspektivləri

Bugünkü müasir Azərbaycan Ordusu 1918-ci ildə yaranmış və 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin qurduğu ordunun varisidir. Yetmiş il sovet imperiyasının tərkibində yaşamağa məhkum edilmiş bir xalq gərgin mübarizələrdən sonra 1991-ci ildə yenidən tarixi müstəqilliyinə qovuşdu. 1991-ci il oktyabrın 9-da Azərbaycan Ali Sovetinin qərarı ilə Azərbaycan Ordusu yaradıldı. Həmin ilin noyabrın 4-də ilk hərbi hissənin yaradılması barədə qərar qəbul olundu. Polkovnik Zadir Rzayevin rəhbərliyi ilə 14 noyabrda hərbi hissənin ilk əsgərləri yığıldı. Hərbi Dəniz Qüvvələrinin təlim bazasında "Şıxov"da formalaşan ilk tabor dekabrın 14-də Hərbi And içərək Qarabağa yollandı. İstər Cümhuriyyət dövrü, istərsə də müstəqilliyimizin ilk illərində Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünə qarşı yaranmış erməni-daşnak təhlükəsi ilə üz-üzə qalıb. 1988-ci ildən başlayan erməni təcavüzü daha ciddi xarakter alaraq müharibə həddinə gəldi. Sovet imperiyasından miras qalan Qarabağ münaqişəsi müstəqilliyimizin ilk illərində daha da genişlənməkdə idi. Ermənilər Azərbaycanın əzəli torpağı olan Qarabağı işğal edib öz ərazisinə qatmaq kimi xam xəyallarını həyata keçirmək üçün bütün vasitələrdən istifadə edirdi. Xarici dövlətlərdən güc alan erməni millətçiləri bütün varlığı ilə Qarabağı Ermənistana birləşdirmək, bu da mümkün olmadıqda ayrıca dövlət qurmaq istəyirdi. Əvvəlcə Ermənistanda yaşayan azərbaycanlıları doğma dədə-baba yurdundan didərgin saldılar. Daha sonra isə Qarabağda erməni silahlı dəstələri fəallıq göstərərək, Şuşa şəhəri də daxil olmaqla, neçə-neçə yaşayış məntəqəsinə hücum edərək dinc insanları güllələbaran etdilər. Əliyalın əhalinin sağ qalan qismi yurd-yuvasını tərk etmək məcburiyyətində qaldı.

Azərbaycanın ərazi bütövlüyünə və xalqına qarşı yönəlmiş erməni terrorunun qarşısı alınmaz həddə çatmışdı. Yeni yaranmaqda olan ordumuzun birləşmələri və ərazi özünü müdafiə taborları erməni silahlı birləşmələrinin qarşısını almaq üçün döyüşlərə cəlb olunurdu. Həm ordu, həm də siyasi baxımdan düşmən daha güclü idi. Erməni lobbisi dünyanın bir çox ölkələrindən onlara dəstək verir, Azərbaycanın haqq səsini boğurdu. Düşmənin bu xislətini dayandırmağın tək yolu xalqın səfərbər olaraq onun bütün hücumlarının qarşısını alması və ölkəmizin mövcud ərazisini qoruması idi. Bunun üçün xalqımızın vətənpərvər oğul və qızları könüllü olaraq cəbhəyə yollanırdılar. Onların qəhrəmanlıqları və şücaətləri qısa zamanda ölkədə əks-səda doğurdu. 1992-ci ilin mayından başlayan Goranboy-Ağcakənd əməliyyatı qısa zamanda uğurla başa çatdı.

Goranboy-Ağcakənd ərazisi erməni silahlı dəstələrindən təmizləndikdən sonra ordumuz Tərtər-Ağdərə əməliyyatına başladı. Tərtər şəhəri üçün daha çox təhlükə yaradan Şəhriyar qəsəbəsi erməni silahlılarının cəmləşdiyi ən təhlükəli məntəqə idi. Tərtər şəhərindən 3 kilometr məsafədə yerləşən terror ocağından tez-tez silahlı basqınlar olurdu. Əhali doğma ev-eşiyini tərk etmək məcburiyyətində qalsa da, vətənpərvər oğullarımız şəhərin müdafiəsində mətinliklə dayanmışdılar. Düşmən Tərtəri işğal etməyə çalışırdı. Ordumuzun bölmələri Tərtər çayının sağ və sol sahilləri boyunca döyüşə başladılar. 3 nömrəli Sovxoz adlanan ərazidə düşmən güclü müdafiə olunsa da, sonradan Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Vəzir Orucov, Kərim Kərimov, Yusif Mirzəyev və yüzlərlə qəhrəmanımızın şücaəti sayəsində torpaqlarımız hissə-hissə azad edildi. Ordumuzun keçirdiyi bu uğurlu əməliyyatın sorağı qısa müddətdə hər yana yayıldı. O zaman xalqda orduya, özünün parlaq gələcəyinə böyük ümid var idi. 4 iyul 1992-ci ildə Ağdərə şəhəri erməni silahlı birləşmələrindən tam azad edildi. Döyüşçülər bu tarixi qələbədən bayram ovqatına kökləndilər.

Ermənistan tərəfi cəbhədə Azərbaycan Ordusunun ciddi irəliləyişini görüncə dərhal atəşkəsin əldə edilməsi üçün əl-ayağa düşdü. Bir ay müddətinə əldə edilmiş atəşkəs zamanı düşmən itirilmiş mövqeləri qaytarmaq üçün həmin əraziyə döyüş texnikaları və canlı qüvvə toplamağa başladı. Düşmənin məkrli niyyətinə baxmayaraq ordumuzun bölmələri Kasapet, Heyvalı, Çıldıran və başqa yaşayış məntəqələrini, Sərsəng su anbarı da daxil olmaqla, əhəmiyyətli yüksəklik və əraziləri işğaldan azad etdilər. Döyüşlər zamanı düşmənin xeyli sayda zirehli texnikası və canlı qüvvəsi məhv edildi. Bir neçə tank, PDM və xeyli sayda silah-sursat qənimət olaraq götürüldü.

Ermənistandan fərqli olaraq Azərbaycan o zaman heç bir xarici dövlətdən yardım almırdı. Dövlətin müqəddəratını təyin etmək yalnız xalqın ümidinə qalmışdı. Xalqın vətənpərvər övladları silaha sarılaraq Vətənə sipər oldular.

Azərbaycan Ordusunda yeni yaranmaqda olan hərbi hissələrin sayı da artmaqda idi. Cəbhədə könüllülərdən və çağırışçı gənclərdən ibarət hərbi hissələr döyüşürdü. Müddətli həqiqi hərbi xidmətə gələn gənclər bir neçə ay təlim keçəndən sonra döyüşlərə cəlb olunurdular. Könüllülərdən fərqli olaraq müddətli döyüşçülər həm intizam baxımından, həm də komandirlərin əmrlərinə tabe olmaqla daha rahat idarə olunurdular. Pərakəndə idarə olunan ərazi özünümüdafiə taborları bir çox hallarda döyüşdən müxtəlif bəhanələrlə yayınırdılar. Onların bu cür "döyüş"məkləri ümumi hücumun və yaxud müdafiənin təşkilinə mənfi təsir edirdi. İki ayrı-ayrı qütblərə (Müdafiə Nazirliyinə və İcra Hakimiyyətlərinə) bölünmüş birləşmələrin döyüş tapşırıqları eyni olsa da, bir çox hallarda ikincilərin laqeydliyi hərbi əməliyyatların uğurla baş tutmamasına səbəb olurdu. Bu da sonda şəxsi heyətin ruh düşkünlüyünə gətirib çıxarırdı.

Həmin dövrdə ölkədə yaranmış acınacaqlı vəziyyət dövlət müstəqilliyinə yönəlmiş ən böyük təhlükə olmuşdu. Həm erməni təcavüzü, həm də ölkə daxilində yaranmış özbaşınalıq xalqın dövlət qurumlarına olan inamını tamam itirmişdi. Cəbhədə ordunun döyüş qabiliyyətinin aşağı düşməsi, hakimiyyətin yaritmaz idarəçiliyi torpaqlarımızın erməni silahlı birləşmələri tərəfindən asanlıqla işğalına yol açmışdı. Xalqın və dövlətin düşdüyü ağır vəziyyətdən qurtulmağının yeganə yolu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyevin yenidən respublika rəhbərliyinə gətirilməsi idi. Xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev Bakıya dəvət olundu və səs çoxluğu ilə Milli Məclisin sədri seçildi. O, 1993-cü il iyulun 15-də Gəncədə baş qaldırmış hərbi qiyamın qarşısını almaq məqsədilə gərəkli tədbirlər həyata keçirdi. Ermənistanla müharibədə orduda yaranmış ruh düşkünlüyü, ümidsizlik aradan qaldırıldı. Gənclər Vətənin müdafiəsinə yenidən könüllü olaraq yazılmağa başladılar. Onlar "Vətən uğrunda!", "Heydər baba yolunda!" şüarları ilə tanklar üzərində döyüşlərə yollandılar. Füzuli-Horadiz istiqamətində qısa zamanda düşməni ağır itkilərə düçar edərək 40 kilometrə qədər irəlilədilər. Bu, Azərbaycan Ordusunun cəbhədə zaman baxımından əldə etdiyi ən uğurlu döyüş əməliyyatlarından biri idi.

1994-cü il mayın 12-də imzalanmış atəşkəs Azərbaycan Ordusunun yenidən formalaşmasına zəmin yaratdı. Ulu Öndər Heydər Əliyevin ordu rəhbərliyi qarşısında qoyduğu mühüm vəzifələrdən biri vahid komandanlıq altında birləşmiş ordunun yaradılması idi. Zamanın tələbinə uyğun olaraq könüllülərdən ibarət taborlar buraxıldı və onlar Müdafiə Nazirliyinin hərbi hissələrinə verildi. Ordumuzun yeni silahlarla, döyüş texnikaları və peşəkar zabit kadrları ilə təmin edilməsi istiqamətində də mühüm addımlar atıldı. Qısa zamanda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının artırılması yönündə davamlı iş aparıldı. 2016-cı il Aprel döyüşləri ordumuzun Cənubi Qafqazın ən güclü ordusu olduğunu bir daha sübut etdi. Otuz ilə yaxın torpaqlarımızı işğal altında saxlayan Ermənistan üçün Aprel döyüşləri ciddi xəbərdarlıq idi. Lakin düşmən işğalçılıq siyasətindən əl çəkmədi və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatına cavab olaraq əks-hücuma keçdi və 44 gün ərzində qələbə qazandı. Ordusu darmadağın edilmiş Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Azərbaycan Ordusu bununla da tarixin ən böyük qələbələrindən birini qazanmaqla işğalı sonlandırdı.

Hərb tariximizin uğurlarıdır ki, bu gün müstəqil, suveren dünyəvi dəyərləri özündə ehtiva edən demokratik ölkəmizdə yaşayırıq. Ordumuzun gücü və qüdrəti dövlətimizi, dövlətçiliyimizi daha da möhkəmlətməklə uğurlu inkişafı davam etdirəcək.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan və Türkiyə: Güclü Strateji Hərbi Əməkdaşlıq

***Azərbaycan-Türkiyə qardaşlığı təkcə bu günümüzün deyil, keçmişimizə söykənən qardaşlıqdır. Türk xalqının milli-azadlıq hərəkatında, müharibələr savaşında Azərbaycan xalqı hər zaman qardaşın-qardaşa yardımı, böyük dəstəyi dəvizi ilə yanında olmuşdur. Türkiyənin şanlı hərb tarixində qürur səhifələri açan böyük Çanaqqala və Qurtuluş savaşlarında Azərbaycan oğulları türk xalqına qardaşlıq həmrəyliyi nümayiş etdirərək döyüşlərdə qəhrəmanlıqla iştirak etmişdir. 1918-ci il sentyabrın 15-də Qafqazda İslam Ordusunun Bakı şəhərinin erməni-bolşevik hərbi birləşmələrindən azad edilməsi bir daha onu göstərdi ki, xalqlarımızın həmrəyliyi möhkəmdir. Bu həmrəyliyə hörmət əlaməti olaraq Şəhidlər xiyabanında möhtəşəm Türk şəhidliyi abidəsi ucalır.***



Türk xalqının ulu öndərləri Mustafa Kamal Paşa və Heydər Əliyevin səsləndirdiyi "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", "Bir millət iki dövlət" kəlamları tarixin sınaqlarından çıxaraq bu günümüzlə, sabahımızda eyni ahəngdə səslənir.

Azərbaycanın ərazi bütövlüyünün bərpası, işğal altındakı torpaqların azad edilməsi və Ermənistanın uzun illər ərzində həyata keçirdiyi təcavüzkar siyasətinə son qoyulmasında Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Qafqaz bölgəsində sabitliyin gücləndirilməsi və təhlükəsizliyin tam təmin edilməsi, iqtisadi və nəqliyyat əlaqələrinin yenidən qurulması və region ölkələri arasında münasibətlərin normallaşdırılması məqsədilə Azərbaycan və Türkiyənin birgə atdığı addımlar bu sahədəki irəliləyişləri əyani şəkildə nümayiş etdirir. Həmçinin 44 günlük Vətən müharibəsində fəaliyyət göstərmiş Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi regionda sülhün davamlılığının təmin edilməsində mühüm bir mexanizm kimi diqqət mərkəzində olub. Bu iş birliyi, sülhün bərqərar olunmasında əsaslı rol oynayıb.

Belə ki, Şuşa Bəyannaməsinin imzalanması, Azərbaycanın Qurtuluş Günü - 15 iyun və Qarabağla Zəngəzur bölgəsi üçün böyük tarixi əhəmiyyət kəsb edən Qars müqaviləsinin 100 illiyi ilə üst-üstə düşməsi mühüm mənanı özündə əks etdirir. Biz artıq tarixdəki oxşar hadisələrin təkrarlanmasına dəfələrlə şahidlik edirik. Bu dəfə isə fərq ondan ibarətdir ki, regionda gedən mübarizə Azərbaycan dövlətinin və xalqının maraqlarına uyğun şəkildə inkişaf edir.

Azərbaycan Respublikasının Prezidenti Şuşa Bəyannaməsi barədə verdiyi bəyanatında Azərbaycan-Türkiyə qardaşlığının tarixi əhəmiyyətini vurğuladı: "Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir.

Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlığımız, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Enerji təhlükəsizliyinin, Cənub Qaz Dəhlizinin önəmi Türkiyə, Azərbaycan və Avropa üçün göstərilir və hər bir məsələ çox böyük önəm daşıyır. Mən onların arasında iki məsələni xüsusilə qeyd etmək istərdim. Birincisi, müdafiə sahəsində əməkdaşlıq, iş birliyi məsələsi. Müdafiə sənayesi sahəsində və qarşılıqlı hərbi yardım məsələləri bu Bəyannamədə öz əksini tapır. Bu, tarixi nailiyyətdir. Biz bir daha göstərirık ki, bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik, necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq".

Prezident İlham Əliyevin Qars müqaviləsinə və 100 il əvvəlki hadisələrə istinad etməsi təsadüfi deyil, çünki bu gün baş verənlər 100 il əvvəlki hadisələrə oxşar vəziyyətləri təkrarlasa da, fərqli bir nəticə ilə Azərbaycan dövlətinin və xalqının qalibiyyəti ilə tamamlanır. Keçmişdəki proseslər Ermənistan və onun tərəfdarlarının xeyrinə başa çatmışdı, amma bu gün Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycanın zəfərini simvollaşdırır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində xalqımız 100 il sonra tarixi ədaləti bərpa etmişdir.

Şuşa Bəyannaməsi Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın imzaladığı, bütün dünyanın qəbul etməli olduğu tarixi bir həqiqətdir. Bu saziş hər iki ölkənin ümumi maraqlarının qorunmasına imkan yaratmaqla yanaşı, regional və beynəlxalq strateji məsələlərdə qarşılıqlı fəaliyyətin əlaqələndirilməsini hədəfləyir. Yeni regional düzənin başlanğıcı olaraq, 200 ildən artıq davam edən geosiyasi konfiqurasiyalar dağıdılır və bundan sonra Azərbaycanla Türkiyənin rəhbərliyi altında davam edəcək yeni bir düzənin təməli qoyulur.

Azərbaycan və Türkiyə arasında mövcud olan hərbi əməkdaşlığın regional və beynəlxalq təhlükəsizlik baxımından əhəmiyyəti böyükdür. Dövlət başçısı İlham Əliyevin dediyi kimi, "Türkiyənin marağı nədirsə, bizim də marağımız odur. Təhlükəsizliyimiz birdir, maraqlarımız birdir, gələcəyimiz də birdir". Bu yanaşma iki ölkə arasındakı münasibətlərin strateji və hərbi tərəfdaşlıq baxımından necə möhkəm bir təmələ sahib olduğunu göstərir.

Azərbaycan və Türkiyə təhlükəsizlik sahəsində qarşılıqlı maraqlarını qorumağa çalışaraq, həm regional, həm də qlobal təhlükəsizlik problemləri ilə mübarizədə birgə mövqe nümayiş etdirirlər. Bu əməkdaşlıq hər iki ölkənin ərazi bütövlüyünü təmin etmək və regional sabitliyi gücləndirmək üçün əhəmiyyətli bir addımdır. Ümumi təhlükəsizlik maraqları bu iki ölkə arasında strateji bir yaxınlaşmanı təmin edir.

Türkiyə və Azərbaycan arasında hərbi sahədəki əməkdaşlıq yalnız silah və texnologiya mübadiləsi ilə məhdudlaşmır, həm də qarşılıqlı təlim və təcrübə mübadiləsi ilə daha da güclənir. Hərbi təlimlər və birgə əməliyyatlar hər iki ölkənin ordularının müasir döyüş şəraitində daha səmərəli fəaliyyət göstərməsinə şərait yaradır. Bu əməkdaşlıq hər iki tərəfin hərbi texnologiyalarını modernləşdirməyə və qarşılıqlı dəstək verməyə imkan tanıyır.

Azərbaycan və Türkiyə arasındakı hərbi əlaqələr yalnız indiki dövrdə deyil, gələcəkdə də güclənərək davam edəcək. Bu əməkdaşlıq yalnız hərbi sahədə deyil, iqtisadi və siyasi sahələrdə də qarşılıqlı fayda əldə etməyə yönəlik genişlənəcək. Hər iki ölkə gələcəkdə daha sıx əlaqələr quraraq regionda və dünyada daha möhkəm bir güc mərkəzi yaratmağa çalışacaq.

Yekun nəticə olaraq, Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlıq bir tərəfdən ümumi təhlükəsizlik maraqlarını qorumağa, digər tərəfdən isə güclü bir strateji tərəfdaşlıq yaratmağa xidmət edir. Bu əməkdaşlıq qarşılıqlı dəstəyi və ortaq məqsədləri gücləndirərək, həm ölkələrin, həm də regionun təhlükəsizliyini artırır. "Təhlükəsizliyimiz birdir, maraqlarımız birdir, gələcəyimiz də birdir" yanaşması ilə bu iki ölkə gələcəkdə birgə irəliləyərək daha da inkişaf edəcəkdir.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

---

## *Gənc zabitlərimiz*

# Əsgər idi, indi zabitdir

***Hərbi hissədə onun nümunəvi xidmət etdiyini, batareyanın şəxsi heyətinin yüksək döyüş hazırlığına malik olduğunu, şəxsi heyətin döyüş hazırlığını yüksək mənəvi-psixoloji hazırlığın tamamladığını dedilər. Onu da bildirdilər ki, kapitan Teymur Süleymanov asudə vaxtlarda batareyanın şəxsi heyəti ilə müntəzəm söhbətlər təşkil edir ki, bu da mənəvi hazırlıqda kömək olur.***

Teymur Süleymanov Naftalanda anadan olub, burada orta təhsil alıb, hərbi xidmətə buradan çağırılıb. Digər həmyaşıdlarından fərqli olaraq Teymur müharibənin nə olduğunu daha yaxşı bilirdi. Valideynləri Goranboy rayonundan idi və onların kəndlərinə yaxın ərazilərdə də döyüşlər gedirdi. O döyüşlər haqqında sonralar Teymura da danışmışdılar. Göylərini barıt tüstüsü bürüyən kəndlərin müharibə taleyi onun da düşüncələrində titrəyişlər yaratmışdı. Həqiqi hərbi xidmətdən tərxis edildəndə bəlkə də bunları da xatırlayıb, xidmətini müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirməyi qərara alıb. Nizam-intizamlı olması, hərbi bilikləri yaxşı mənimsəməsi, marağı və sevgisi onun zəmanəti olub. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kursunu bitirib. Qoşunlarda xidmətə başlayıb.



"Müddətli həqiqi hərbi xidmətdə də, müddətdən artıq həqiqi hərbi xidmətdə də bir gerçəkliyi həyat yolumun məması bilmişəm: Harada olursan ol, sevgi ilə yaşamalısan, təyin olunduğun sahəyə məhəbbətin olmalıdır. Hərbçilər buna daha həssaslıqla əməl edirlər. Əsgər olanda da belə xidmət edirdim, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olanda da, indi də...", - kapitan Teymur Süleymanov belə dedi.

Aprel döyüşlərinə onun xidmət etdiyi divizion da cəlb olunmuşdu. Diviziona düşmənin dayaq məntəqəsini dağıtmaq əmri verilmişdi. Bu əmr vaxtında və dəqiq yerinə yetirilsə, döyüşçülərimiz düşmənin nizamını pozacaqdı, hücumun genişlənməsinin qarşısı alınacaqdı. Əmr hamısının ilk döyüş əmri olsa da, onu mükəmməl yerinə yetirdilər; atışlar dəqiq oldu. Düşmənin dayaq məntəqəsi dağıdıldı...

Talış kəndi istiqamətində döyüşürdülər. Divizion Tapqaraqoyunlu istiqamətində mövqe tutmuşdu. Döyüş getdiyi vaxtlarda yaxınlıqlarına düşmənin atdığı top mərmisi düşsə də, döyüş davam etdirdilər. Komandanlığın əmri ilə koordinatları verilmiş mövqelərə davamlı atışlar apardılar. Döyüşlər qələbəmizlə başa çatdı.

Teymur Süleymanov Lənkəran Dövlət Universitetinin "İqtisadiyyatın hüquqi tənzimlənməsi fakültəsi"ni bitirmişdi, ali təhsilli mütəxəssis idi. Ancaq hərbi xidmətini davam etdirmək istəyirdi.

2017-ci ildə zabit olmaq istəyib. Hərbi hissə komandiri onun istəyini və xidmətini nəzərə alıb, "Ehtiyat zabit hazırlığı kursu"na göndərib. Xeyir-dua da verib: Bir qədər də yaxşı hazırlaş, Süleymanov, yaxşı zabit olmağın yolu yaxşı hazırlıqdan keçir...

2020-ci il iyulun 14-ü idi. Tovuz döyüşləri gedirdi. Düşmən yaxın mövqelərimizi minaatanlarla intensiv olaraq atəşə tutmuşdu. Döyüşün içində olan general-mayor Polad Həşimov şəhid olmuşdu. Komandanlıq şəhid generalın nəşini döyüşün içindən çıxartmaq əmri verdi, həm də əmr tez, təxirə salınmadan yerinə yetirilməli idi. Ləngidilsə, o əraziyə düşmən də yaxınlaşa bilərdi. Bu güman əmri vacibləşdirdi. Baş leytenant Teymur Süleymanov Məmmədov soyadlı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu ilə birlikdə şəhid generalın nəşini atəş altında çətinliklə də olsa çıxarda bildi...

Əsgər idi, hərbi xidmətini müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirmişdi, sonra zabit olmuşdu. O da işğal olunmuş kəndlərimizi, ata yurdundan uzaqlarda qalanlarımızı düşünmüşdü. Batareyanın baş zabiti kimi başlamışdı. Kapitan Teymur Süleymanovun hərbi xidmətini Hərbi Nizamnamələrin tələblərinin, zabit hazırlığı kursunda öyrəndiklərinin, illərlə qazandığı təcrübənin vəhdəti tənzimləyir. Batareyada gözəl xidmət münasibəti formalaşıb. Komandirin əsgərlərə, əsgərlərin komandirə rəğbəti hərbi xidməti daha da gözəlləşdirir.

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

Vətənpərvərlik

# Hərbi qulluqçuların dünyaduyumu mənəvi kamillikdir

Hərbi xidmətdə asudə vaxtlarda düzgün təşkil edilən söhbətlərin mahiyyəti pedaqoji proseslə eyniləşir. Bu söhbətlərlə Vətən qoruyucularına nələrsə öyrədilir, nələrsə aşılanır. Bu baxımdan əsgərlər hərbi xidmət müddətində həm öyrənir, həm də öyrənə-öyrənə formalaşırlar. Belə söhbətlərdə əsasən, Vətəndən danışılır, qəhrəmanlardan, onların döyüşlər zamanı göstərdikləri igidliklərdən söhbət açılır. Hər söhbət mənəvi-psixoloji hazırlıqda gərəkli vasitədir. Hərbi xidmət müddətində əsgərlərlə asudə vaxtlarda təşkil edilən söhbətlər həmişə səmərəli olur. Səmimi söhbət hərbi kollektivdə formalaşan səmimi münasibət deməkdir.

Əsgərlər belə söhbətlərdə daha çox öyrənməyə maraqlı olurlar. Ən çox da komandirlərindən müharibə tarixindən danışmalarını xahiş edirlər. Bu xahişlər həm öyrənmək istəyidir, həm də vətənsevərliyi formalaşdıran tarixi amildir.

"N" hərbi hissəsinə səferimiz Böyük Vətən müharibəsində qazanılan qələbənin 80-ci ildönümünə təsadüf etdi. Kapitan Ülvi Məmmədli əsgərlərlə söhbətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir fikrini də xatırlatdı: "Böyük Vətən müharibəsində ümumi Qələbəyə Azərbaycan xalqının da sanballı töhfəsi olub. Xalqımızın




600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Sovet İttifaqı Qəhrəmanlarından 170 nəfəri Azərbaycanın nümayəndələridir. Bu, xalqımızın qürur mənbəyi, böyüməkdə olan nəsil üçün örnəkdir".

Əsgərlər azərbaycanlı zabitlərə Sovet İttifaqı Qəhrəmanı adı verilən döyüşlərlə də ciddi maraqlanırlar. Onlar Gəray Əsədovun, Ziya Bünyadovun, Mehdi Hüsenzadənin qəhrəmanlığını xatırladılar. Əsgərlər yoldaşlarının söhbətlərini maraqla dinləyirlər. Zabit Ü.Məmmədli deyilənləri ümumiləşdirdi:

- Xalqımızın tarixi mübarizələr tarixidir. Müxtəlif dövrlərdə müharibələr də olub, yadellilərə qarşı mübarizələr də. Tarix Əlincə qalasının, Şuşa qalasının müdafiəçilərinin qəhrəmanlığını da qürurla xatırlayır, ötən əsrin əvvəllərində ermənilərə qarşı mübarizəni də, döyüşləri də. Bu tarixlər 2020-ci ilin 27 sentyabrında başlayan İkinci Qarabağ müharibəsində də qəhrəmanlıqlarla təkrarlandı. Qəhrəman şəhidlərimizin, igid oğullarımızın şücaəti sayəsində 30 ilə yaxın işğal altında qalmış torpaqlarımız yağı düşməndən azad olundu, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu. İkinci Qarabağ müharibəsi təkcə bunlarla tarixləşmədi, həm də tarixi ədalət bərpa olundu. Döyüşlərdə qazanılan tarixi Zəfər də təsdiqlədi ki, Ali Baş Komandanımızın dediyi kimi, "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır".

Kapitan Ü.Məmmədli əsgərlərə İkinci Qarabağ müharibəsinin döyüşlərindən birini xatırlatdı:

- Döyüşün gedişində əsgərlərdən biri yoldaşının yaralandığını hiss edir. Atəş altında irəliləyərək ona yaxınlaşır ki, yarasını sarısın, döyüşün içindən bir tərəfə çəksin. Yaxınlaşır, yaralı döyüşçüyə çatanda özü də güllə yarası alır. Hər ikisi də şəhid olur.

Əsgərlərdən biri həmin döyüşçülərin kimliyini bilmək istədi. Zabit xatırlayana kimi əsgərlərdən biri hamımıza xoş gələn gözəl bir cavab verdi: Nə fərqi var, hər ikisi də qalib Azərbaycan Ordusunun döyüşçüsü olub. Yəni, bu, qəhrəmanlıq Azərbaycan əsgərinin qəhrəmanlığıdır.

Kapitan Ü.Məmmədli hərbi hissənin şəxsi heyətinin də döyüşlər zamanı qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəldiyini vurğuladı. "Qarşısında dayandığımız xatirə kompleksi əməliyyatlar zamanı hərbi hissəmizin şəhid olan hərbi qulluqçularının xatirələrinin əbədiləşdirilməsi məqsədilə salınıb. Şəhidlik ən uca qəhrəmanlıq zirvəsidir. Şəhidlər tarixi torpaqlarımızın azad olunması uğrunda öz canlarından, qanlarından keçdilər. Şəhidlərimizin döyüş yolu, göstərdikləri qəhrəmanlıqlar hər birimiz üçün örnəkdir. Onların əziz xatirəsini daim yad etmək, bizə əmanət qoyduqları Vətənimizi göz bəbəyimiz kimi qorumaq hər birimizin borcudur".

Tarixi Zəfərdən sonra ordu quruculuğunun yeni mərhələsi başladı. Bu mərhələdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığı müharibənin döyüş təəssüratları ilə də yüksəldilir.

Kapitan Ülvi Məmmədlinin döyüşlər haqqında xatirələri bizi də qürurlandırdı. Asudə vaxtlarda təşkil edilən bir söhbət formatında belə bir mənəvi kamillik hamıya xoş gələcək. Zabit Azərbaycan əsgərinin dünyaduyumunu mənəvi kamillik adlandırdı...

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

Nümunəvi xidmət

## İdmançı və hərbçi ruhunun birləşdiyi həyat



İdmançıların və hərbçilərin həyat yolu çox zaman həm çətin, həm də ilhamverici olur. Səid Qaraşlı da bu yolda addımlayan gənclərimizdən biridir. 17 iyun 2006-cı ildə İmişli rayonunda doğulan Səid, uşaqlıqdan özünü yaşıdlarından müsbət xüsusiyyətlərinə görə fərqləndirməyi bacarıb. O, hər zaman idmana və zəhmətə əhəmiyyət verib, əlindən gələnin ən yaxşısını etməyə çalışıb. Məhz bu əzmkarlıq və iradə ona hədəflərinə çatmaq üçün lazımi təkan verib.

Səidin idman dünyasına ilk addımları 6 yaşında atılıb. Bu yaşda karate ilə tanış olan Səid, bir müddət sonra özündə böyük bir potensial görüb. Gələcəyinə olan inamla gündəlik məşqlərinə daha çox vaxt sərf etməyə, hər bir təcrübəni öz üzərində sınamağa başlayıb. Bu əzmkarlıq qısa müddət ərzində özünü göstərib və Səid yeniyetmələrarası Bakı birinciliyində üç dəfə birincilik qazanıb. Bu uğur onun idmançı kimi yüksəlişinə zəmin yaradıb.

Səidin idman yolunun növbəti mərhələsi respublika üzrə əldə etdiyi uğurlar olub. Yeniyetmələrarası respublika çempionatında iki dəfə birinci, bir dəfə isə ikinci yer tutaraq, dövrünün ən güclü karateçilərindən biri olduğunu sübut edib. Bu nailiyyətlər onun yalnız ölkə daxilində deyil, beynəlxalq arenada da tanınmasını təmin edib. Səidin 2015-ci ildə Ukraynanın Odessa şəhərində keçirilən kişi yeniyetmələrarası Dünya kubokunda qazandığı birincilik idman həyatında ən böyük uğurlarından biri olub. Bu yarışda finalda erməni idmançısını nakautla məğlub edərək, həm öz gücünü, həm də iradəsini bir daha sübut edib. Dünya kubokunda qazandığı birincilik onun idmançı kimi əzmkarlığının və döyüş qabiliyyətinin təcəssümü idi.

Səidin həyatı yalnız idmanla məhdudlaşmır. O, mühəndis-istehkam bölməsində əsgər olaraq Vətəninə xidmət edir. Bu, onun üçün yalnız yeni bir vəzifə deyil, həm də yeni bir həyat mərhələsi, yeni təcrübələr və təlimlərlə dolu bir dövr olub. Hərbi xidmətin ən mühüm tərəfi onun üçün nizam-intizam, Vətənə bağlılıq və döyüş ruhudur. Hər bir gün yeni bir yeni bir dərs deməkdir. Hərbi xidməti boyunca Səid yalnız fiziki gücünü deyil, həm də mənəvi keyfiyyətlərini inkişaf etdirir. Onun üçün hər bir tapşırıq, hər bir təlim gələcəkdəki hədəflərə bir addım daha yaxınlaşmaq, bir az daha güclü olmaq deməkdir.

Səid Qaraşlı yalnız idman arenasında qazandığı medallarla deyil, həm də hərbi xidmətindəki nizam-intizam və əzmkarlığı ilə hörmət qazanan bir əsgərdir. Onun həyatı sadə bir gəncin böyük uğurlar əldə etməsinin simvoludur. O, çalışqanlığı, iradəsi və döyüşçü ruhu ilə yalnız özünü deyil, ailəsini və Vətənini də qürurlandırır.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

## Şəhidlərin irsi, gənclərin qüruru

Azərbaycan Ordusu hər bir azərbaycanlının qürur mənbəyi, milli birliyimizin və dövlətimizin güvənc yeridir. Bu ordunun hər bir əsgəri Vətənə sadiq xidmət edir, torpaqlarımızın müdafiəsində canından keçməyə hazırdır. Hərbi forma isə yalnız geyim deyil, həm də bir öhdəlik, şərəf nişanəsidir. Azərbaycan Ordusunun igid övladları tarix boyunca ölkəmizin müdafiəsində məğrur dayanıblar.

Belə qəhrəmanlardan biri də 8 dekabr 2006-cı ildə Beyləqan rayonunun Milabad kəndində anadan olan əsgər Emil Hikmət oğlu Babaşovdur. Emil bildirdi ki, müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra şəhid övladı



kimi atasının qəhrəman yolunu davam etdirmək arzusundadır. "Azərbaycan Ordusunun sıralarından ayrılmaq mənim üçün düşünülməzdir. Hərbi formanı daşımaq mənim üçün çox qürurvericidir. Bu forma bizim tariximizin, şanlı qəhrəmanlığımızın simvoludur. Torpaqlarımız uğrunda şəhid olmuş qardaşlarımızın qanı yerdə qalmadı. Onların qəhrəmanlığı bizim üçün əbədiyyətə bərabərdir".

Əsgər Emil Babaşovun atası kiçik çavuş Hikmət Firudin oğlu Babaşov 22 il Azərbaycan Ordusunda şərəflə xidmət edib. O, 2016-cı ilin Aprel döyüşlərində iştirak edərək, qəhrəmanlıq göstərib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində isə döyüşlərin ən ağır və həlledici məqamlarında ön cəbhədə vuruşub. Füzuli, Qubadlı, Hadrut, Tuğ, Zəngilan və Şuşa istiqamətlərində gedən döyüşlərdə onun şücaəti və fədakarlığı Azərbaycan xalqının qəhrəmanlıq tarixində parlaq səhifələrdən biridir. Kiçik çavuş Hikmət Babaşov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub. Bu yüksək mükafatlar onun mərdliyinə, şücaətinə və vətənpərvərliyinə verilən dəyərdir.

Digər əsgər Ülvi Qulam oğlu Abışov 22 iyun 2003-cü ildə Neftçala rayonunun Qazaxbərəsi kəndində anadan olub. O, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Xanəndə" ixtisasını bitirmiş gəncdir. Hərbi xidmətini başa vurduqdan sonra mədəniyyət sahəsində öz töhfəsini vermək niyyətindədir. Ülvi üçün bu sənət onun Vətən sevgisinin, millətinə bağlılığının ifadəsidir.

Ülvini daha da qürurlandıran isə onun qardaşının qəhrəmanlıq tarixidir. 2023-cü ildə keçirilən antiterror əməliyyatı zamanı qardaşı qəhrə-



mancasına şəhid olub. Ülvi qardaşının xatirəsini hörmət və ehtiramla yad etdi: "Qardaşım Habil Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə fərqlənib. O, xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulan tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub".

Azərbaycan xalqı hər zaman mərd, igid və vətənpərvər oğullarına güvənib. Onlar Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq üçün canlarından keçməkdən çəkinməyiblər. Tarix boyu bu vətənpərvərlər xalqın azadlıq və qurtuluş mübarizəsinin ən önündə dayanıblar. Onların igidliyi və şücaəti gələcək nəsillərə örnəkdir. Bu gün də həmin qəhrəmanların ruhunu yaşadan gənclərimiz var. Onlar şəhidlərinin xatirəsinə hörmətlə yanaşır, Vətənə sadiq qalaraq Azərbaycan Ordusunun sıralarında xidmət edirlər.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

Maraq dünyamız

# Planetimizin ən duzlu 10 gölü



Müəyyən bir torpaq sahəsinin heyrətamiz duzlu bir gölə çevrilməsi üçün bir neçə amilin birləşməsi lazımdır. Birincisi, su hövzəsinin axarı olmamalı və dayaz olmalıdır, ikincisi isə suyun duzlara çıxışı olmalıdır.

**Qaetel gölü - 43,3%**

Efiopiyadakı Qaetel gölündə suyun hər kiloqramında 764 qram duz var. Bu, planetin ən duzlu və ən gənc gölü hesab edilir. Su hövzəsi Afrika qitəsində cəmi 10 il ərzində güclü zəlzələ nəticəsində yaranıb və o vaxtdan bəri isti bulaqlarla qidalanır. Göldə suyun temperaturu 50 dərəcəyə çatır.

**Don Juan gölü - 40,3%**

Planetimizin ən "qapalı" materikində - Antarktidada yerləşən Don Juan gölündə okeandakından 18 dəfə çox duz var. Antarktidanın Viktoriya Torpağı, Rayt vadisində yerləşən kiçik bir göldür. Dünyanın "ən duzlu gölü" statusuna namizədlərdən biridir. Duzluluq 40,2 % təşkil edir. Quru və sərt iqlimdə yerləşən və güclü küləklərə məruz qalan Don-Juan gölü, ətrafda -53 °C şaxta olduğu zaman belə donmur. Buna səbəb məhz gölün duzluluğudur.

**Retba gölü - 40%**

Dəniz suyunun daxil olması və daimi baş verən buxarlanma, bu su anbarının duzluluğuna səbəb olur. Lakin Seneqaldakı Retba gölü bu özəlliyindən fərqli bir xüsusiyyətinə görə daha çox tanınır. Müəyyən bir bakteriya gölün sularını çəhrayı rəngə boyayır və buradan çıxarılan duz çəhrayı rəngdə olur. Hətta heyrətamiz göldə bu şəraitə uyğunlaşmış bəzi balıqlar yaşayırlar.

**Assal gölü - 40%**

Assal gölünün əsas duzları təxminən 20-40 metr dərinlikdə yerləşir, gölün səthi isə bir qədər az duzludur. Göl Afrikanın ən alçaq nöqtəsidir. Göl dəniz səviyyəsindən 155 metr aşağıda - Afar ovalığında yerləşir. Burada duz hasil edilir və Efiopiyaya göndərilir.

**Medvejye gölü - 36%**

Dünyanın ən duzlu göllərindən biri Rusiya Federasiyasının Kurqan vilayətində yerləşir. Burada duzların konsentrasiyası böyük əraziyə və dayaz dərinliyə görə formalaşır. Buna görə də yalnız buzlaqların əriməsi nəticəsində əmələ gələn su ilə qidalanan göl aktiv şəkildə buxarlanır. Gölün “sakinləri” isə ən kiçik xərçəngkimilərdir.

**Vanda gölü - 35%**

Bu göl Antarktidanın Viktoriya Torpağı ərazisində - Rayt vadisində yerləşir. Gölün suyu duzludur. Duzluluq 35% təşkil edir. Maraqlıdır ki, gölün suyunun temperaturunda təbəqələşmə müşahidə edilir. Alt təbəqədə temperatur 23 °C, orta təbəqədə 7 °C, üst təbəqədə isə 3-4 °C təşkil edir.



**Qara Boğaz gölü - 35%**

Xəzər dənizinin şərqində Türkmənistan ərazisində laqun mənşəli körfəzdir. Körfəzin duzluluğu Xəzər dənizinə nisbətən daha yüksəkdir - 35% təşkil edir. Körfəzin duzluğunun yüksək olmasının səbəbi Mirabilit duzu ilə zənginliyidir.

**Ölü dəniz - 34%**

Ölü dəniz dünyanın ən alçaq ərazisi kimi Yer planetində məşhurdur. Bununla yanaşı, dünyada duzlu yer kimi də ad qazanmışdır. Bu dənizin suyu tamamilə müalicəvi və xeyirli minerallarla zəngindir, həmçinin kosmetika məhsullarında da istifadə edilir.

Müstəsna isti iqlim gölün suyunun buxarlanmasına və duzluğun artmasına səbəb olur.



**Elton gölü - 28%**

Rusiyadakı bu dayaz göl yayda praktiki olaraq buxarlanır. Dibində yalnız bir neçə santimetr səviyyədə su qalır. Yazda dərinliyi 1,5 metri çətinliklə keçir. Göl suyu 152 kvadrat kilometr əraziyə yayılaraq, aktiv şəkildə buxarlanır. Bakteriyalar da burada çoxalaraq suya qırmızımtıl rəng verir.

**Urmiya gölü - 28%**

Bu, zaman keçdikcə duzlaşan göllərdən biridir. İranda yerləşən Urmiya gölü onu qidalandıran çayların üzərində su anbarlarının inşası ilə əlaqədar aktiv şəkildə quruyur və yerində min tonlarla duzlaqlar meydana gəlir.

**"Azərbaycan Ordusu"**

# İdman



## Azərbaycan minifutbol millisi dünya çempionatının qalibi olub

Bakıda keçirilən minifutbol üzrə dünya çempionatı başa çatıb.

Milli Gimnastika Arenasında təşkil olunan final görüşündə Azərbaycan və Macarıstan yığmaları üz-üzə gəliblər. Matç komandamızın 4:2 hesablı qələbəsi ilə yekunlaşıb.

Millimizin heyətində qolları Təmkin Xəlilzadə, Məhəmməd Xəlilov və Rəvan Kərimov (2) vurublar.

Bununla da Elşad Quliyevin rəhbərlik etdiyi kollektiv tarixində ilk dəfə dünya çempionatının qalibi olub.

Qeyd edək ki, turnirdə üçüncü yeri Monteneqroya 3:0 hesabı ilə qalib gələn Serbiya millisi tutub.

## Azərbaycan avarçəkənləri Qazaxıstandakı turniri 14 medalla başa vurublar



Qazaxıstanın Uralsk şəhərində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmiş kayak və kanoe üzrə beynəlxalq reqata təşkil olunub.

Milli komandanın üzvləri turnirdə 3-ü qızıl, 6-sı gümüş, 5-i bürünc olmaqla ümumilikdə 14 medal qazanıblar.

İvan Vorobjanski birnəfərlik kayak qayığında həm 200, həm də 500 metr məsafədə yarışlarda fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Həmçinin 200 metrdə Elmir Tarverdiyev 2-ci, 500 metrdə Mustafa Vəlizadə 3-cü yer tutub. İkinəfərlik kayak qayığında 500 metr məsafədə İvan Vorobjanski - Vacib Babayev cütlüyü bütün rəqiblərini qabaqlayıb. Mustafa Vəlizadə və Elmir Tarverdiyevin sürdüyü qayıq finişi ikinci keçib. İ.Vorobjanski rusiyalı idmançı ilə birgə bürünc mükafata sahib çıxıb. 200 metr məsafəyə yarışlarda İvan Vorobjanski - Hüseyn Həsənov dueti 2-ci, Vacib Babayevlə Nuran Rəhimli fəxri kürsünün 3-cü pilləsinə qalxıblar.

Kanoedə Hüseyn Səmədli 3 kateqoriya üzrə mükafatçılar sırasına düşüb. 200 metr məsafədə birnəfərlik qayıqda bürünc, ikinəfərlik qayıqda gümüş medal qazanıb. 500 metr məsafədə ikinəfərlik qayıqda Hüseyn Səmədli 3-cü olub.



## Azərbaycan boksçusu Almatıda beynəlxalq turnirin qalibi olub

Almatıda Qazaxıstan Müdafiə Nazirliyinin Mərkəzi idman klubunda 28-ci Beynəlxalq boks turniri keçirilib.

Qazaxıstan Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, turnirdə Qazaxıstan, Azərbaycan, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistan, Monqolustan, Özbəkistan və İrandan olan 218 boksçu çempion adı uğrunda mübarizə aparıb, habelə İran və BƏƏ-dən müşahidəçilər iştirak ediblər.

Turnirdə 48 kq çəki dərəcəsində keçirilən döyüşlərin nəticələrinə görə Azərbaycan idmançısı Sübhan Məmmədov qələbə qazanıb.

Qeyd edək ki, turnir müstəqil Qazaxıstanın ilk müdafiə naziri, ordu generalı Saqadat Nurmaqambetovun anadan olmasının 101-ci ildönümünə həsr olunub.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar



## Ukrayna Təhlükəsizlik Xidməti Rusiyanın 40-dan artıq hərbi təyyarəsinə hava zərbələri endirib

İyunun 1-də Ukrayna Silahlı Qüvvələri Rusiyada hərbi təyyarələrin məhvi üçün xüsusi əməliyyat keçirib. Artıq 40-dan çox təyyarənin vurulduğu qeyd edilir.

Bu barədə "RBK-Ukrayna"ya hərbi mənbələrdən məlumat verilib.

Bildirilib ki, Təhlükəsizlik Xidmətinin pilotsuz təyyarələri Ukrayna şəhərlərini bombalayan təyyarələrin məhvi üzərində əməliyyat keçirib.

"Hazırda A-50, Tu-95 və Tu-22 M3 təyyarələri də daxil olmaqla, 40-dan çox təyyarənin məhv edildiyi məlumdur. İlkin olaraq Rusiyanın hərbi bombardman təyyarələrinə 2 milyard dollardan çox ziyan dəyib", - deyə məlumatda vurğulanıb.

## Britaniya 12 yeni nüvə sualtı qayıq inşa edəcək



Britaniyanın uzun zamandan bəri gözlənilən müdafiə strategiyasına əsasən, artan qlobal təhdidlərə cavab olaraq 12-yə qədər yeni nüvə ilə işləyən hücum təyinatlı sualtı qayıq inşa edəcək.

Bu yeni, nüvə enerjisi ilə işləyən, lakin konvensional silahlarla təchiz olunmuş sualtı qayıqlar 2030-cu illərin sonlarından etibarən hazırkı 7 gəmilik Astute sinfini əvəz edəcək. Eyni zamanda, Müdafiə Nazirliyi ölkənin nüvə çəkindirmə proqramı çərçivəsində yeni başlıqlara 15 milyard funt sterlinq ayıracaq. Bu, Britaniyanın mümkün müharibələrə daha hazırlıqlı olması üçün nəzərdə tutulub.

Britaniyanın bu gün açıqlanacaq 130 səhifəlik müdafiə strategiyasının gəmiqayırma, dron texnologiyası və kibertəhlükəsizlik sahələrində investisiya dalğasına səbəb olacağı bildirilib. Həmçinin on minlərlə yüksəkixtisaslı iş yeri yaradılacaq.



## Mali, Niger və Burkina-Fasoda hərbi bazalara hücum nəticəsində 400-dən çox əsgər ölüb

"Əl-Qaidə" terror təşkilatına yaxınlığı ilə tanınan silahlı qruplaşma bazar günü Malidəki hərbi bazaya edilən hücuma görə məsuliyyəti öz üzərinə götürüb. İlkin məlumata görə, bu hücum nəticəsində 30-dan çox əsgər həlak olub.

May ayının əvvəlindən bəri Mali, Niger və Burkina-Fasoda yerləşən hərbi bazalar və qarnizonlara edilən hücumda 400-dən çox əsgər öldürülüb.

Mayın 2-də "Nusrat əl-islam val-muslimin" adlı başqa qruplaşma bəyanat verərək ölkənin şimalındakı Tumbuktu şəhərində yerləşən hərbi hava limanı və orada olan rus muzdlularına hücum etdiyini bildirib. Bu hücumda ölənlərin və yaralananların sayı barədə məlumat verilmir. Adıçəkilən silahlı qruplaşma Malinin Burkina-Faso ilə sərhəddə yerləşən Bulkisi regionunda hərbi hissəni ələ keçirdiyini elan edib. Mali ordusu bildirib ki, həmin regiondakı qüvvələrini geri çəkib.

**AZƏRTAC-ın materialları əsasında**

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Kapitan
Günay TAĞIYEVA

Lisenziya № 361
Sifariş № 248
Nüsxə 3630